**UOT 7.07**

**Səmayə İlqar qızı Xəlilova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Magistrant**
**E-mail: sema_xelilova93@mail.ru**

# SƏNƏTŞÜNAS ZİYADXAN ƏLİYEVİN YARADICILIĞINDA SƏTTAR BƏHLULZADƏ FENOMENİ

**Xülasə:** Məqalədə çağdaş dövr Azərbaycan sənətşünaslığının görkəmli nümayəndəsi Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ziyadxan Əliyevin yaradıcılığında mühüm yer tutan Xalq rəssamı Səttar Bəhlulzadəyə həsr olunmuş elmi-tədqiqatlardan bəhs edilir. Qeyd olunur ki, Səttar Bəhlulzadənin yaradıcılığı haqqında Ziyadxan Əliyevin yerli və beynəlxalq mətbuatda çoxsaylı elmi məqalələri dərc olunmuş, o cümlədən görkəmli rəssamın əziz xatirəsinə ehtiram əlaməti olaraq “Naməlum Səttar” (2006), “Sənətin Məcnunu” (2009), “Günahlı dünyanın günahsız adamı və yaxud Səttar Bəhlulzadə romantizmi” (2014) və “Səttar Bəhlulzadə yaradıcılığında sənətkarlıq məsələləri” (2019) kitabları işıq üzü görmüşdür. 2014-cü ildə isə Ziyadxan Əliyev sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün “Səttar Bəhlulzadənin yaradıcılığında romantizm” mövzusunda dissertasiya müdafiə etmişdir.

**Açar sözlər:** sənətşünas, Ziyadxan Əliyev, yaradıcılıq, Səttar Bəhlulzadə, fenomen

Çoxəsrlik və zəngin tarixə malik olan Azərbaycan sənətşünaslıq elmi son yarım əsr ərzində bir sıra yüksək nailiyyətlər qazanmışdır. Bu mənada çağdaş dövr Azərbaycan sənətşünaslığının görkəmli nümayəndələrindən olan Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ziyadxan Əliyevin xidmətlərini xüsusilə qeyd etməliyik.

Azərbaycan incəsənətinin müxtəlif sahələri üzrə elmi-tədqiqatlar aparan görkəmli sənətşünasın yaradıcılığında daha çox XX-XXI əsr Azərbaycan təsviri sənətinin bədii xüsusiyyətləri və bu sahədə fəaliyyət göstərən görkəmli təsviri sənət ustalarının yaradıcılıqları əsas yer tutur. Ömrünün qırx ilə yaxın hissəsini elmi araşdırmalara sərf edən tədqiqatçı – alim bu gün Azərbaycan sənətşünaslığına böyük töhfə hesab edilən qırxdan çox kitabın müəllifidir. “Mir Möhsün Nəvvabın rənglər aləmi” (1996), “Cəmil Müfidzadə. Cizgilərə hopan ömür” (2011), “Zakir Hüseynov. Tənha döyüşçü” (2011), “Fəxrəddin Seyfəddinoğlu (Məmmədvəliyev). Çağdaş rəssamlığımızın fenomeni” (2012), “Azərbaycanın Xalq rəssamı Davud Kazımov” (2012), “Eldar Mikayılzadə.

İlmələrin hikməti." (2013), "Görüş Nurəddinoğlu. Plastikanın poetik çalarları." (2013), "Tamilla Seyidova. Gerçəkliyin rəngi." (2014), "Arif Hüseynov. Cizgilərin hikməti" (2014), "Sənətkar ömrü. Şaiq Məmmədov" (2016), "Bəhruz bəy Kəngərli taleyi" (2017), "Rafael Abbasov" (2017), "Gennadi Brijatyuk və onun mənəvi dəyərlər dünyası" (2020), "Yaşar Səmədov. Rənglərin simfoniyası" (2020), "Rəssam İlham Səfərli. Kainat haqqında düşüncələr" (2021) və s. kitablar bu qəbildən olan geniş və əhatəli yazılmış monoqrafiyalardır. Bunun nəcisədir ki, məhz bu gün incəsənət təmayüllü ali təhsil ocaqlarının müəllim-tələbə heyəti müasir dövr Azərbaycan rəssamları və onların yaradıcılıq fəaliyyəti haqqında bilavasitə həmin kitab – monoqrafiyalardan bəhrələnməkdədir.

Lakin adlarını yuxarıda qeyd etdiyimiz rəssamlardan fərqli olaraq Ziyadxan Əliyevin yaradıcılığında Xalq rəssamı Səttar Bəhlulzadənin xüsusi yeri vardır. Təbii ki, bunu şərtləndirən başlıca amillərdən biri görkəmli sənətşünasın hələ gənclik illərindən Səttar Bəhlulzadə ilə mənəvi – ruhən yaxınlığı və onun gələcəkdə sənətşünas kimi formalaşmasında rəssamın böyük rol oynamasıdır. Daha dəqiq desək, *"zamanında yaradıcılığına və şəxsiyyətinə böyük ehtiram göstərdiyi Xalq rəssamı Səttar Bəhlulzadənin Ziyadxan Əliyevə "yaxşı rəng hissiyyatın var, səndən yaxşı rəssam olar" deməsinə baxmayaraq, o, sonradan bəzi məlum səbəblərdən məhz elə Səttar Bəhlulzadənin xeyir-duası ilə sənətşünaslıq aləminə gəldi, ancaq bir qədər fərqli: özündən əvvəlki sənətşünasları təkrarlamaq üçün yox, yeni söz demək üçün gəldi"* [8, s.12]. Təbii ki, Ziyadxan Əliyevə qədər Azərbaycan sənətşünaslığının yaşlı nəslinin nümayəndələri: M.Nəcəfov, P.Hacıyev, N.Həbibov, o cümlədən çağdaş dövrdə şair-publisist A.Abdulla, teatrşünas İ.Rəhimli, tədqiqatçı S.Tahirovun müxtəlif həcmli məqalə və kitablarında Səttar Bəhlulzadənin həyat və yaradıcılığının müxtəlif məqamlarına işıq salınmışdır. Lakin bu nəşrlərdə rəssamın bədii yaradıcılıq irsinə dərin məzmunlu və elmi münasibət göstərilməmişdir.

Ömrünün 35 ildən çoxunu Səttar Bəhlulzadənin həyat və yaradıcılığına həsr edən Ziyadxan Əliyevin bu illər ərzində "Səttarsız" (1982), "Füzuli poeziyası... Səttar dünyası" (1983), "Ölməzlik" (1984), "Şair təbiətli rəssam" (1989) "Səttar dünyası" (1995), "Səttar belə Səttar idi" (2000), "Rənglərin impressiyası ilə dialoq" (2005), "Azərbaycan təbiətinin Məcnunu" (2008), "Süslənmiş rənglərin poetikası" (2009), "Səttar Bəhlulzadə fenomeni" (2009), "Sadə və oyunsuz adam" (2009), "Səttar hazırcavablığı" (2010), "Xalq rəssamı Səttar Bəhlulzadənin irsi milli tarixi-estetik dəyərlərin daşıyıcısı kimi" (2010), "Səttar Bəhlulzadə romantizminin fəlsəfəsi" (2011), "Xalq rəssamı Səttar Bəhlulzadənin yaradıcılığında sənətkarlıq məsələləri" (2012) və s. başlıqları altında rəssamın yaradıcılıq dünyasını əks etdirən yerli və beynəlxalq mətbuatda dərc olunan çoxsaylı elmi məqalələri işıq üzü görmüşdür.

*"Ziyadxan Əliyevin "Naməlum Səttar" (2006), "Sənətin Məcnunu" (2009), "Günahlı dünyanın günahsız adamı və yaxud Səttar Bəhlulzadə romantizmi" (2014) və "Səttar Bəhlulzadə yaradıcılığında sənətkarlıq məsələləri" (2019) kitablarını isə görkəmli rəssamın xatirəsinə yaradıcı və insani ehtiramın göstəricisi hesab etmək olar"* [8, s.12].

Özündə Xalq rəssamı Səttar Bəhlulzadənin çoxşaxəli yaradıcılığını əks etdirən ensiklopedik xarakterli "Sənətin məcnunu" (2009) kitabında demək olar ki, bir rəssam haqqında yazılmalı və tədqiq edilməli bütün sahələrə toxunulub. Qeyd edək ki, kitabın ərsəyə gəlməsində *"YUNESKO-nun qərarı ilə 2009-cu ilin "Səttar Bəhlulzadə ili" elan olunması və bundan çıxış edərək Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının ölkədə onun 100 illik yubileyinin qeyd olunması barədə"* [5, s.11] imzaladığı sərəncamın böyük rolu olmuşdur. 2014-cü ildə isə Ziyadxan Əliyev sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Səttar Bəhlulzadənin yaradıcılığında romantizm" mövzusunda dissertasiya müdafiə edib. Dörd fəsildən ibarət olan dissertasiya "Səttar Bəhlulzadənin yaradıcılıq yolu", "Səttar Bəhlulzadə yaradıcılığında poetik romantizm axtarışları", "Səttar Bəhlulzadə romantizminin fəlsəfi yükü" və "Səttar Bəhlulzadə sənətkarlığı poetik romantizmin ifadəçisi kimi" başlıqları özündə ehtiva edir. Tədqiqat işində fərqlilik ondan ibarətdir ki, digərlərindən fərqli olaraq "Tədqiqatın yeniliyi" hissəsində müəllif Səttar Bəhlulzadə yaradıcılığına əvvəllər mövcud olmuş bütün yanaşmalardan imtina etməsini vurğulamışdır. Orijinallığı qorumaq məqsədilə tədqiqat işinin həmin hissəsini olduğu kimi sizə təqdim etməyi özümüzə borc bildik: *"Səttar Bəhlulzadə yaradıcılığının zəngin bədii-estetik dəyərləri və məna-məzmun məziyyətləri Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq ayrıca monoqrafik tədqiqat obyekti kimi təqdim olunur; rəssamın yaradıcılığına bu vaxta qədər həsr edilmiş müxtəlif qayəli sənətşünas və qeyri professional münasibətlərdə dərk olunmayan elmi-nəzəri və psixoloji-fəlsəfi bədii-texniki qatların açıqlanması; Səttar Bəhlulzadə yaradıcılığını təşkil edən və bu vaxta qədər geniş ictimaiyyətə təqdim olunmayan və elmi tədqiqata cəlb olunmayan müxtəlif janrlarda işlənmiş əsərlərinin təhlili; Rəssamın yaradıcılığını səciyyələndirən bədii-texniki xüsusiyyətlərin özünəməxsusluğunu, bəzi hallarda novatorluğunun əsaslandırılması; Səttar Bəhlulzadənin realizm ənənələrinin nəhayətsizliyini nümayiş etdirməsinin, milli təsviri sənətimizə "fəlsəfi mənzərə"nin yaradıcısı kimi daxil olmasının, bu janrı tarixiliklə zənginləşdirməsinin şərhi"* [5, s.8-9].

Nəticə etibarilə qeyd edək ki, Ziyadxan Əliyevin Xalq rəssamı Səttar Bəhlulzadə və onun yaradıcılığından bəhs edən elmi məqalə və monoqrafiyaları demək olar ki, rəssamın bütün bədii yaradıcılıq irsini əhatə etmişdir. Respublika və beynəlxalq səviyyəli konfranslarda, sərgi və ictimai tədbirlərdə Ziyadxan

Əliyev tərəfindən görkəmli rəssamın anılması da bir növ onun yaradıcılığına və ruhuna olan böyük ehtiramın əyani göstəricisidir.

Qeyd edək ki, hal-hazırda Azərbaycan Rəssamlar İttifaqının "Tənqid və sənətşünaslıq" bölməsinə və "Sənətşünaslığın təbliği" İctimai Birliyinə sədrlik edən Ziyadxan Əliyev eyni zamanda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasının professoru vəzifəsində çalışır.

## Ədəbiyyat siyahısı:

1. Əliyev Z. Xalq rəssamı Səttar Bəhlulzadənin yaradıcılığında sənətkarlıq məsələləri // Müasir mədəniyyətşünaslıq, 2012, № 1 (9).
2. Əliyev Z. Naməlum Səttar. Bakı, Buta, 2006, 79 səh.
3. Əliyev Z. Sənətin Məcnunu. Bakı, Aspoliqraf, 2009, 390 səh.
4. Əliyev Z. Səttar Bəhlulzadə fenomeni // Bakı: Qobustan, - 2009. №4.
5. Əliyev Z. Səttar Bəhlulzadənin yaradıcılığında romantizm: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2013. - 168 s.
6. Əliyev Z. Səttar dünyası // Bakı: Qobustan, - 2008. № 3.
7. Sadıqov S. Milli irsimizin yorulmaz tədqiqatçısı // Palitra. – 2010, 9 noyabr. – s.13.
8. Xəlilov A. Sənətşünaslığımızda Ziyadxan Əliyev ucalığı. 525-ci qəzet. - 2021, 1 iyul, - s.12.

**Самая Ильгар кызы Халилова**

## ФЕНОМЕН СЕТТАРА БАХЛУЛЗАДЕ В ТВОРЧЕСТВЕ ХУДОЖНИКА ЗИЯДХАНА АЛИЕВА

**Резюме:** В статье рассказывается о научном исследовании, посвященном народному художнику Саттару Бахлулзаде, сыгравшему важную роль в творчестве профессора Зиядхана Алиева, заслуженного деятеля искусств, доктора философии по искусствоведению, видного представителя современного азербайджанского искусствоведения. В данной статье отмечается, что Зиядхан Алиев опубликовал множество научных статей о творчестве Саттара Бахлулзаде в местной и в международной прессах, а также в знак уважения к светлой памяти выдающегося художника были опубликованы следующие книги: «Неизвестный Саттар» (2006), «Меджнун искусства» (2009), «Невинный человек грешного мира или романтизм Саттара Бахлулзаде» (2014) и «Вопросы мастерства в творчестве Саттара Бахлулзаде» (2019). В 2014 году Зиядхан Алиев защитил диссертацию на тему «Романтизм в

творчестве Саттара Бахлулзаде» с целью соискания ученой степени доктора философии по искусствоведению.

**Ключевые слова:** искусствовед, Зиядхан Алиев, творчество, Саттар Бахлулзаде, феномен.

**Samaya Ilgar gizi Khalilova**

## CREATION OF THE ARTIST ZYADKHAN ALIYEV THE PHENOMENON OF SETTAR BAHLULZADE

**Summary:** The article describes a scientific study dedicated to the national artist Sattar Bahlulzade, who played an important role in the work of Professor Ziyadkhan Aliyev, Honored Art Worker, Doctor of Philosophy in Art History, a prominent representative of modern Azerbaijani art history. It is noted that Ziyadkhan Aliyev published many scientific articles about the work of Sattar Bahlulzade in the local and international press, including "Unknown Sattar" (2006), "Art Book" (2009), "Innocent Man of the Sinful World", and also as a sign of respect to the blessed memory of the outstanding artist or romanticism Sattar Bahlulzade" (2014) and "Issues of skill in the work of Sattar Bahlulzade" (2019). In 2014, Ziyadkhan Aliyev defended his dissertation on the topic "Romanticism in the work of Sattar Bahlulzade" in order to obtain the degree of Doctor of Philosophy in Art History.

**Key words:** art critic, Ziyadkhan Aliyev, creativity, Sattar Bahlulzade, phenomenon.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**